# BƏZİ DUALAR

## SÜBHƏ NƏKƏ

سُبْحَانَكَ اللّٰهُمَّ وَ بِحَمْدِكَ وَ تَبَارَكَ اسْمُكَ
وَتَعَالٰى جَدُّكَ (وَجَلَّ ثَنَاؤُكَ) وَلَا اِلٰهَ غَيْرُكَ

### Oxunuşu

[Subhənəkə Allahummə və bihəmdik və təbərakəsmuk və təalə cədduk. (Və cəllə sənəuk). Və lə iləhə ğayruk]

### Məalı

Allahım, Sən hər cür nöqsan və qüsurdan uzaqsan, paksan, bütün kamil vəsflərə maliksən. Sənə həmd edirəm. Sənin adın müqəddəsdir, mübarəkdir. Sənin əzəmətin çox ucadır və Səndən başqa ilah yoxdur.

**Mötərizədə verilmiş "və cəllə sənəuk"** əlavəsi cənazə namazında oxunur.

# ƏTTƏHİYYƏT

اَتَّحِيَّاتُ لِلّٰهِ وَالصَّلَوَاتُ وَالطَّيِّبَاتُ ۝ اَلسَّلَامُ

عَلَيْكَ اَيُّهَا النَّبِيُّ وَرَحْمَتُ اللّٰهِ وَ بَرَكَاتُهُ ۝

اَلسَّلَامُ عَلَيْنَا وَ عَلٰى عِبَادِ اللّٰهِ الصَّالِحِينَ ۝

اَشْهَدُ اَنْ لَا اِلٰهَ اِلَّا اللّٰهُ ۝ وَ اَشْهَدُ اَنَّ مُحَمَّدً

عَبْدُهُ وَ رَسُولُهُ ۝

## Oxunuşu

[Əttəhiyyətu lilləhi vəssaləvətu vəddayyibət. Əssələmu aleykə əyyuhənnəbiyyu və rahmətullahi və bərakətuh. Əssələmu aleynə və alə ibədilləhis salihin. Əşhədu ən lə iləhə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluh]

## Məalı

Bütün gözəlliklər, ən uca təriflər dillə, bədənlə və malla edilən bütün ibadətlər Allaha məxsusdur. Ey şanı uca Peyğəmbər, Allahın salamı, rəhməti və bərəkəti Sənin üzərinə olsun. Salam bizlərə və Allahın saleh qullarının üzərinə olsun. Mən şəhadət edirəm ki, Allahdan başqa heç bir ilah yoxdur. Və şəhadət edirəm ki, Məhəmməd (s.ə.s.) Allahın qulu və Rəsuludur.

## ALLAHUMMƏ SALLİ

اَللّٰهُمَّ صَلِّ عَلٰى سَيِّدِنَا مُحَمَّدٍ وَعَلٰى اٰلِ سَيِّدِنَا
مُحَمَّدٍ كَمَا صَلَّيْتَ عَلٰى اِبْرَاهِيمَ وَ عَلٰى اٰلِ
اِبْرَاهِيمَ اِنَّكَ حَمِيدٌ مَجِيدٌ

### Oxunuşu

[Allahummə salli alə seyyidinə Muhəmmədin və alə əli seyyidinə Muhəmməd. Kəmə salləytə alə seyyidinə İbrahimə və alə əli seyyidinə İbrahim. İnnəkə həmidum məcid]

### Məalı

Allahım, Həzrəti İbrahimə və ailəsinə mərhəmət etdiyin kimi (peyğəmbərimiz) Həzrəti Məhəmmədə və ailəsinə də mərhəmət et. Şübhəsiz ki, tərifə layiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən.

# ALLAHUMMƏ BƏRİK

اَللّٰهُمَّ بَارِكْ عَلٰى سَيِّدِنَا مُحَمَّدٍ وَعَلٰى اٰلِ سَيِّدِنَا

مُحَمَّدٍ كَمَا بَارَكْتَ عَلٰى اِبْرَاهِيمَ وَ عَلٰى اٰلِ

اِبْرَاهِيمَ اِنَّكَ حَمِيدٌ مَجِيدٌ

## Oxunuşu

[Allahummə bərik alə seyyidinə Muhəmmədin və alə əli seyyidinə Muhəmməd. Kəmə bəraktə alə seyyidinə İbrahimə və alə əli seyyidinə İbrahim. İnnəkə həmidum məcid]

## Məalı

Allahım, Həzrəti İbrahim və ailəsinə bərəkət verdiyin kimi (peyğəmbərimiz) Həzrəti Məhəmməd və ailəsinə də bərəkət ehsan et. Şübhəsiz ki, tərifə layiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən.

## RABBƏNƏ ƏTİNƏ

رَبَّنَا اٰتِنَا فِى الدُّنْيَا حَسَنَةً وَ فِى الْاٰخِرَةِ حَسَنَةً

وَقِنَا عَذَابَ النَّارِ

### Oxunuşu

[Rabbənə̲ ə̲tinə fiddunyə̲ həsənətən və fil ə̲xirəti həsənətən və qinə̲ azə̲bənnə̲r]

### Məalı

Ey Rəbbimiz! Bizə dünyada və axirətdə gözəl nemət ver və bizi Cəhənnəm əzabından qoru.

## RABBƏNƏĞFİRLİ

رَبَّنَا اغْفِرْ لِى وَلِوَالِدَىَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ

الْحِسَابِ

### Oxunuşu

[Rabbənəğfirli vəli vəlidəyyə və lil muminin yaumə yəqumul hisəb]

### Məalı

Ey Rəbbimiz! Məni, ana-atamı və möminləri hesab günü bağışla.

# QUNUT DUASI

اَللّٰهُمَّ اِنَّا نَسْتَعِينُكَ وَنَسْتَغْفِرُكَ وَنَسْتَهْدِيكَ
وَنُؤْمِنُ بِكَ وَنَتُوبُ إِلَيْكَ وَنَتَوَكَّلُ عَلَيْكَ وَنُثْنِى
عَلَيْكَ الْخَيْرَ كُلَّهُ نَشْكُرُكَ وَلَا نَكْفُرُكَ وَنَخْلَعُ وَ
نَتْرُكُ مَنْ يَفْجُرُكَ

## Oxunuşu

[Allahummə innə nəstəinukə və nəstəğfirukə və nəstəhdikə və nu`minu bikə və nətubu iləyk. Və nətəvəkkəlu aleykə və nusni aləykəl xayra kulləhu nəşkurukə və lə nəkfurukə və nəxləu vənətruku mən yəfcuruk.

## Məalı

Allahım, yalnız Səndən yardım, əfv və hidayət istəyirik. Sənə iman edir, Sənə tövbə edir, Sənə güvənib sığınırıq. Bütün müvəffəqiyyətlərimiz, əldə etdiyimiz hər bir nemət ancaq Sənin lütfün sayəsindədir. Buna görə də, yalnız Sənə şükür edir, nankorluq etmirik. Sənə üsyan edənlərdən uzaq oluruq.

## QUNUT DUASI

اَللّٰهُمَّ إِيَّاكَ نَعْبُدُ وَ لَكَ نُصَلِّى وَ نَسْجُدُ وَ إِلَيْكَ

نَسْعٰى وَ نَحْفِدُ نَرْجُوا رَحْمَتَكَ وَ نَخْشٰى عَذَابَكَ

إِنَّ عَذَابَكَ بِالْكُفَّارِ مُلْحِقٌ

### Oxunuşu

Allahummə iyyəkə nəʻbudu və ləkə nusalli və nəscudu və ileykə nəs`a və nəhfidu nərcu rahmətəkə və nəxşə azəbəkə innə azəbəkə bilkuffəri mulhiq ]

### Məalı

Allahım ancaq Sənə ibadət edir ancaq Sənin üçün namaz qılır və yalnız Sənə səcdə edirik. Hər işimizdə ancaq Sənin rizanı məqsəd bilir və onu qazanmağa çalışırıq. Həmişə mərhəmətini umur, əzabından da qorxuruq. Çünki Sənin əzabın kafirlər üçündür.